


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 146 (24.283)

*15 avqust 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Naxçıvanda Diaspor Gənclərinin IV Yay Düşərgəsinin açılış mərasimi keçirilib





“Heydər Əliyev İli” çərçivəsində qədim Azərbaycan torpağı olan Naxçıvanda Diaspor Gənclərinin IV Yay Düşərgəsinin rəsmi açılış mərasimi keçirilib.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Diasporla İş üzrə Dövlət Komitəsinin hazırladığı “Heydər Əliyev və diaspor quruculuğu” mövzusunda sənədli film və əvvəlki Yay düşərgələrinin iştirakçılarının salamlama videosu təqdim olunub.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxışında IV Yay Düşərgəsinin iştirakçılarını Ümummilli Lider Heydər Əliyevin dünyaya gəldiyi Naxçıvan şəhərində salamlamaqdan məmnun olduğunu bildirib, düşərgənin işinə uğurlar arzulayıb. Ulu Öndərin Naxçıvanla bağlı fəaliyyətindən ətraflı bəhs edən Fuad Nəcəfli onun siyasi kursunun layiqli davamçısı olan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Naxçıvanda aparılan tikinti-quruculuq işləri və inkişaf perspektivləri barədə məlumat verib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov düşərgənin təşkilində göstərdikləri köməyə görə Heydər Əliyev Fonduna və Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı Səlahiyyətli Nümayəndəliyinə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev xaricdə yaşayan azərbaycanlıları hər zaman tarixi Vətənlə əlaqələrini kəsməməyə, vaxtaşırı Azərbaycana səfər etməyə çağırıb. Bundan başqa, Birinci vitse-prezident Mehriban Əliyeva xarici ölkələrdə Azərbaycan məktəblərinin fəaliyyətini xüsusi diqqət mərkəzində saxlayır. Bu mənada, Diaspor Gənclərinin Yay düşərgələri Azərbaycan Prezidentinin tövsiyələrinin gerçəkləşdirilməsi kimi də qiymətləndirilə bilər.

Diaspor Gənclərinin IV Yay Düşərgəsinin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunduğunu və “Heydər Əliyev İli” çərçivəsində təşkil edildiyini vurğulayan komitə sədri bildirib ki, Ümummilli Liderin Azərbaycan tarixində, Naxçıvanın isə Ümummilli Liderin həyatında rolu misilsiz və ölçüyəgəlməzdir.

Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Əli Hüseynli deyib ki, Azərbaycan diasporu hazırda öz tarixinin ən güclü dövrünü yaşayır və Azərbaycan dövləti işğalçı Ermənistana qalib gəldiyi kimi, diasporumuz da böyük imkanlara malik Ermənistan diasporuna qalib gəlib: “Diaspor Gənclərinin Yay düşərgələri kimi layihələrin diasporun fəaliyyətində, təşkilatlanmasında və ana vətənlə əlaqələrin qurulmasında müstəsna əhəmiyyəti var”.

Heydər Əliyev Fondunun nümayəndəsi Aydan Ramazanova düşərgə iştirakçılarına Fondun fəaliyyəti və həyata keçirdiyi layihələr barədə məlumat verib.

Tədbir bədii hissə ilə yekunlaşıb.

Qeyd edək ki, avqustun 18-dək davam edəcək Diaspor Gənclərinin IV Yay Düşərgəsi Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə gerçəkləşdirilir. Düşərgənin tərəfdaşı Heydər Əliyev Fondu, təşkilati dəstək Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı Səlahiyyətli Nümayəndəliyinə məxsusdur.

Diaspor tarixinin möhtəşəm layihələrindən biri hesab olunan IV Yay Düşərgəsində 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edir. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən











*Ardı 2-ci səhifədə*












xalqların nümayəndələri var. Layihənin Heydər Əliyevin bir əsr öncə dünyaya gəldiyi qədim Naxçıvan şəhərində keçirilməsi xüsusi önəm daşıyır.

Prezident cənab İlham Əliyevin “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” 2022-ci il 29 sentyabr tarixli Sərəncamı çərçivəsində həyata keçirilən layihə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gəncləri vahid platforma ətrafında bir araya gətirmək və Azərbaycanla daha yaxından tanış etmək məqsədini daşıyır.

Düşərgənin proqramına Naxçıvanın tarixi və mədəni abidələri ilə tanışlıq, şəhid ailələrinin üzvləri və qəhrəman qazilərimizlə, həmçinin müxtəlif sahələr üzrə ekspertlərlə görüşlər, eləcə də gənclər üçün əyləncəli proqramlar, intellektual oyunlar daxildir.

✍ **Nail ƏSGƏROV**

## Fuad Nəcəfli Naxçıvanda keçirilən Diaspor Gənclərinin IV Yay Düşərgəsi haqqında paylaşım edib


Fuad Najafli
@fuad_najafli
Naxçıvanda Diaspor Gənclərinin IV Yay Düşərgəsi açıldı. Müxtəlif ölkələrdən gələn gəncləri ulu öndər Heydər Əliyevin doğma vətəni Naxçıvandan iftixarla salamlayıb, düşərgənin işinə uğurlar arzuladıq. Avqustun 18-dək davam edəcək düşərgədə 53 ölkədən 100-dən çox gənc iştirak edir.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvanda keçirilən Diaspor Gənclərinin IV Yay Düşərgəsi haqqında tviter hesabında paylaşım edib.

## H.M.Seyidovun Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Həsən Miribrahim oğlu Seyidov Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini təyin edilsin.
2. Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Miribrahim oğlu Seyidova həvalə edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 14 avqust 2023-cü il*

## H.N.Kərimovun Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Həsən Nizami oğlu Kərimov Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 14 avqust 2023-cü il*

## Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov:

### *“Ulu Öndər Heydər Əliyevin diaspor quruculuğu fəaliyyəti istiqamətində həyata keçirilən hər bir tədbir mühüm əhəmiyyət kəsb edir”*



*Xəbər verdiyimiz kimi, avqustun 12-də Naxçıvanda Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə “Heydər Əliyev – 100” tədbirləri çərçivəsində keçirilən Diaspor Gənclərinin IV Yay Düşərgəsi başlayıb. Avqustun 18-dək davam edəcək düşərgədə 53 ölkədən gəlmiş 100-dən artıq gənc iştirak edir. İlk gün gənclər Heydər Əliyev Muzeyində, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olub, muxtar respublikanın dövlətçilik tarixi, mədəni inkişafı barədə zəngin məlumatlar əldə ediblər.*

***Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov*** düşərgənin təşkili, əhəmiyyəti barədə müsahibə verib: – Möhtərəm cənab Prezidentin Sərəncamı ilə bu il Ulu Öndər Heydər Əliyevin 100 İlliyini qeyd edirik. Bu hər bir azərbaycanlı üçün çox vacib, həyatında iz qoyan bir tarixdir. Buna görə də qərara gəldik ki, ən böyük layihələrdən biri olan “Heydər Əliyev – 100” Diaspor Gənclərinin IV Yay Düşərgəsini məhz Naxçıvanda həyata keçirək və çox gözəl oldu ki, bu təşəbbüsümüz reallığa çevrilir. 50-dən çox ölkədən 100-dən çox iştirakçı gəlib gözəl Naxçıvanı görür. Ümumiyyətlə, Azərbaycan tarixində Ulu Öndər Heydər Əliyevin, Naxçıvanın xüsusi rolu var. Azərbaycanın müstəqil, güclü olmasında Ulu Öndər Heydər Əliyevin məhz Naxçıvanda imzaladığı qərarlar və



fərmanlar bu gün bir çox istiqamətlərdə bəhrəsini verir. Bu sərəncamlardan biri də 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlıdır. Biz hər il bu günü dövlət səviyyəsində qeyd edirik. O günün təsis olunması da məhz Naxçıvanda baş tutub. Azərbaycan bayrağının ilk dəfə Naxçıvana gətirilməsi, gənclər siyasəti ilə bağlı, eyni zamanda diaspor quruculuğu istiqamətində atılan tarixi addımlar dediklərimizə sübutdur. Bilirsiniz ki, Naxçıvan həm də Şərqə qapıdır və dahi rəhbər Heydər Əliyev bütün səfərlərində məhz diaspor nümayəndələri ilə görüşüb. Biz də Diasporla İş üzrə Dövlət Komitəsi kimi möhtərəm cənab Prezidentin tapşırığını icra edərək müxtəlif sahələrdə, o cümlədən gənclərin diaspora qoşulması istiqamətində də işlər görməyə çalışırıq. Bildirmək istəyirəm ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, hörmətli Mehriban xanım Əliyeva tərəfindən artıq neçə illərdir, müxtəlif sahələrdə, o cümlədən gənclər sahəsində də ciddi tədbirlər həyata keçirilməkdədir.

*Ardı 3-cü səhifədə*

“Heydər Əliyev – 100” Diaspor Gənclərinin IV Yay Düşərgəsini də Heydər Əliyev Fondu, Diasporla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi ilə birgə həyata keçiririk. Onu da bildirmək istəyirəm ki, artıq ilk gündən bizim gənclərimiz Naxçıvanda olan bu gücü, dəyişiklikləri hiss edirlər. Çox şadam ki, bir həftə ərzində bizim gənclərimiz Azərbaycan dili, Azərbaycan milli adət-ənənələri haqqında məlumat alacaq. Eyni zamanda müxtəlif səpkidə təlimlər keçəcəklər ki, gələcəkdə bizim diaspor gənclərimiz əsas, ideal diaspor işinə qoşula bilsin. Bu gün bizə bu şərait yaradıldığı üçün Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə, bizə böyük dəstək olanlara təşəkkür edirəm.



Onu da qeyd edim ki, düşərgə çərçivəsində bizim xüsusi bir neçə panelimiz olacaq. Həmin panelə Ulu Öndər Heydər Əliyevlə çalışmış insanlar dəvət olunub. Tanınmış dövlət və siyasət xadimləri Həsən Həsənov, Vilayət Quliyev, akademik Rafael Hüseynov... Onlar hamısı burada bizimlə birlikdə olacaqlar. Eyni zamanda biz hər gün Ulu Öndər Heydər Əliyevlə, Onun həyat yolu ilə bağlı müxtəlif videoçarxlar da göstərəcəyik. Eyni zamanda biz çalışacağıq ki, Ulu Öndər Heydər Əliyevin mənalı ömür yolu, dəyərli irsi, Onun həyata keçirdiyi siyasi görüşlər, diaspor quruculuğu istiqamətində verdiyi töhfələr haqqında məlumatları, Onun məsləhətlərini də diaspor gəncləri ilə bölüşək, çünki biz tam əminik ki, Ulu Öndər Heydər Əliyevin diaspor quruculuğu fəaliyyəti istiqamətində həyata keçirilən hər bir tədbir mühüm əhəmiyyət kəsb edir. Çox şadıq ki, bu işi həyata keçirməkdə bizim gənclərimiz çox böyük fəallıq göstərir. Bu o deməkdir ki, nəsildən-nəslə bu bilik, bacarıq mütləq şəkildə ötürüləcək. İnanıram ki, bu tədbir hər birimizə, xüsusilə də diaspor gənclərinə böyük uğur gətirəcək. Onların böyük bir hissəsi Azərbaycana ilk dəfə gəlirlər, Naxçıvanda olmayıb və mənə elə gəlir ki, bu onların həyatlarında, gələcək fəaliyyətlərində çox mühüm bir həftə, mühüm günlər kimi yadda qalacaq.

✍ **Nail ƏSGƏROV**

# Ulu Öndərin Naxçıvana göstərdiyi qayğıda oğulluq məhəbbəti var idi



Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar qədim Azərbaycan torpağı olan Naxçıvanda 2023-cü il 12-18 avqust tarixlərdə Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə “Heydər Əliyev – 100” Diaspor Gənclərinin IV Yay Düşərgəsi təşkil edilib. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı və Azərbaycana dost münasibət bəsləyən digər xalqların gəncləri bu yay düşərgəsində iştirak edib.

Düşərgənin ikinci gününün proqramına əsasən Kommunikasiya və marketinq, peşəkar brendin formalaşması üzrə strateji planlama istiqamətində ixtisaslaşan ekspert Tatiana Ravallinin təqdimatında “Sosial media marketinq” mövzusunda təlim olub. 1-ci panel iclasında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun moderatorluğu ilə millət vəkili, AMEA-nın həqiqi üzvü Rafael Hüseynovun, Azərbaycan Respublikasının sabiq xarici işlər naziri, diplomat, siyasi və dövlət xadimi Həsən Həsənovun, Azərbaycan Respublikasının sabiq xarici işlər naziri, Azərbaycan Respublikasının Bosniya və Hersoqovinada fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevin “Ulu Öndər Heydər Əliyevin həyat yolu” mövzusunda çıxışları olub.

Günün ikinci yarısında Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş film nümayiş olunub.

2-ci panel iclasında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri Vəsilə Zeynalovanın moderatorluğu ilə Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu, “Qafqazinfo” saytının rəhbəri Elbrus Ərud, ADA Universitetinin müəllimi Şəfəq Mehrəliyeva, “*Modern.az*” saytının rəhbəri Elşad Eyvazlı və “Qlobal Media Group”un media direktoru Həmid Həmidovun çıxışları olub. Qeyd edək ki, “Vətən uzaqda deyil” mövzusunda aparılan 2-ci panel tok-şou formatında çəkilərək İctimai TV-də yayımlanıb.

“Heydər Əliyev – 100” Diaspor Gənclərinin IV Yay Düşərgəsi bir mühüm tarixi əhəmiyyəti ilə də seçilir ki, düşərgənin panel iclaslarına Ulu Öndər Heydər Əliyevlə çalışmış dipolomat, siyasi və dövlət xadimləri, Azərbaycan mediasının rəhbərləri dəvət olunub. Onların Ümummilli Liderimizlə bağlı xatirələri, qədim Naxçıvanın siyasi-strateji tarixi əhəmiyyəti ilə bağlı fikirləri gənclərimizdə böyük maraq doğurub. Düşərgənin fəxri iştirakçılarının bir neçəsindən “Şərq qapısı” qəzetinin oxucuları üçün müsahibə almağa nail olduq.

***Həsən Həsənov – Azərbaycan Respublikasının sabiq xarici işlər naziri, diplomat, siyasi və dövlət xadimi:*** – Diaspor Gənclərinin IV Yay Düşərgəsinin “Heydər Əliyev İli”ndə məhz Naxçıvanda keçirilməsi xüsusi məna kəsb edir. Çünki Naxçıvan Heydər Əliyevin vətənidir, dahi şəxsiyyət burada böyüyüb, boya-başa çatıb. Heydər Əliyev Naxçıvana hər zaman böyük diqqət və qayğı ilə yanaşıb. Mən deməzdim ki, Naxçıvana digər regionlara nisbətən üstün qayğı göstərib, bu, obyektiv olmazdı, amma Naxçıvana göstərdiyi qayğıda sanki oğulluq məhəbbəti var idi. O dövrdə Azərbaycanın böyük şairi, yazıçı və dramaturq Hüseyn Cavidin məqbərəsinin Naxçıvanda olması geniş müzakirə nəticəsi oldu. Bakıdan bir çox ziyalılar təklif edirdi ki, onun cənazəsi Bakıda Fəxri xiyabanda dəfn olunsun. Ancaq sonra müzakirələrin nəticəsində dahi şəxsiyyət Heydər Əliyevin qərarı ilə Hüseyn Cavidin nəşi doğulduğu doğma Naxçıvanda torpağa tapşırıldı, məqbərə Naxçıvanda ucaldıldı. Sizə bir xatirəmi söyləyim. Cavidin cənazəsi Bakıya gətiriləndə sovet dövrü idi, o zamanlar mən ideoloji məsələlər üzrə Ulu Öndər Heydər Əliyevin müavini kimi fəaliyyət göstərirdim. Ermənistanın ideoloji məsələlər üzrə bir katibi var idi. Görüşlərin birində dedi ki, siz bizim başımıza iş açdınız, söylədim “niyə?”, dedi ki, bəs siz Hüseyn Cavidin cənazəsini Azərbaycana gətirdikdən sonra ermənilər israrla deyirlər ki, bizim də Yeğişe Çarensimiz olub, o da sovet hakimiyyəti tərəfindən həbs olunub, ölüb. Biz bilmirik əhaliyə nə cavab verək. Dedim ki, mən sizə bir məsləhət verə bilərəm. Dedi “Necə bir məsləhət?”, dedim, “sizə müraciət edənlərə deyin ki, onların Heydər Əliyevi var, bizimsə Heydər Əliyevimiz yoxdur”.



Cavidin məqbərəsi tikiləndə mən xarici işlər naziri idim. İrana getməli idim. Ulu Öndər məni çağırdı, xüsusi tapşırdı ki, İrandan qayıdanda Naxçıvanda ayaq saxla, məqbərənin vəziyyətinə bax, şəkillərini çək və mənə gətir. Mən də 40-a yaxın şəkil çəkdirdim. Hər şəkli ayrı-ayrı ölçdü-biçdi ki, məqbərə onun arzuladığı qaydada tikilir, yoxsa yox? Bu məqbərənin tikintisini O, yaxından müşahidə edirdi.



Dahi şəxsiyyət Heydər Əliyev ikinci ulduz alanda mən təsadüfən Moskvada idim. 10 may 1983-cü ildə... 9 may axşam eşitdim ki, Heydər Əliyev artıq ikinci “Qızıl ulduz” ilə təltif olunub. Səhər gəldim ki, onu təbrik edəm. İnanın ki, mən gələndə artıq qəbul otağı təbrik etmək istəyənlərlə dolu idi. Bu izdiham axşam saatlarına qədər müşahidə olundu. Rusiyanın saysız-hesabsız ictimai-siyasi xadimləri, xarici səfirlər, bütün respublikaların Moskvadakı nümayəndəlikləri, Moskvanın ziyalıları, görkəmli şəxsiyyətlər hər biri dahi siyasi xadim Heydər Əliyevi təbrik edirdi. Yəni bu böyük şəxsiyyət təkcə Azərbaycanda deyil, bütün dünyada sevilirdi.

***Vilayət Quliyev – Azərbaycan Respublikasının sabiq xarici işlər naziri, Azərbaycan Respublikasının Bosniya və Hersoqovinada fövqəladə və səlahiyyətli səfiri:*** – Naxçıvan, şübhəsiz, bizim diaspor fəaliyyətimizdə mühüm yer tutmalıdır. Ona görə ki, Naxçıvan Azərbaycanın qədim tarixə malik bir diyarı, ayrılmaz tərkib hissəsidir. Bu diyar Azərbaycan tarixinə görkəmli şəxsiyyətlər bəxş edən bir diyardır. Naxçıvan, həmçinin Ulu Öndər Heydər Əliyevin vətənidir. Bütün bu amillər Naxçıvana diqqətin ön sırada olmasını şərtləndirir. Bildiyiniz kimi, hələ də Naxçıvana qarşı erməni iddiaları davam edir. Bu iddiaların qarşısını almaq məqsədilə müxtəlif ölkələrdə yaşayan diaspor nümayəndələrimiz Naxçıvanı mümkün qədər təbliğ etməlidirlər. Bu nöqteyi-nəzərdən Diaspor təşkilatları qarşısında ciddi vəzifə dayanır. Düşünürəm ki, “Heydər Əliyev İli”ndə onlar bu vəzifələrin öhdəsindən daha parlaq şəkildə gəlməyi qarşılarına məqsəd qoymalıdırlar, Naxçıvan geniş təbliğ olunmalı, Ulu Öndərin doğulduğu qədim torpaq haqqında çoxlu kitablar çap olunmalıdır.



Bir misal çəkmək istəyirəm. Mən Macarıstanda fəaliyyət göstərdiyim dövrdə Naxçıvan haqqında “Naxçıvan təqvimi” adlı kitab hazırlayıb, çap etdirmişdik. Həmin kitab o dövrdə böyük maraq doğurdu. Naxçıvan, həqiqətən də, Azərbaycanın dünya miqyasına çıxarılası bir tərkib hissəsi, parçasıdır. Bu işin də öhdəsindən Diasporla İş üzrə Dövlət Komitəsi və diasporun nümayəndələri gələ bilərlər. Şübhəsiz, diaspor gənclərinin builki – “Heydər Əliyev İli”nə həsr olunmuş IV Yay Düşərgəsinin yay toplantısının Naxçıvanda keçirilməsi bu məsələyə inanıram ki, stimul verəcək. Xarici ölkələrdən buraya gələn yüzlərlə gənc Naxçıvanı görür, insanlarla ünsiyyət qururlar. Naxçıvanın tarix və mədəniyyət abidələri ilə tanış olurlar. Bütün bunlar imkan yaradacaq ki, onlar Naxçıvan haqqında daha obyektiv, daha geniş, faktlara və sənədlərə əsaslanıb danışacaqlar.



***Rəşad Məcid – Azərbaycan Mətbuat Şurasının sədri, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, “525-ci qəzet”in baş redaktoru:*** – Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi şərəfinə Diaspor Gənclərinin IV Yay Düşərgəsinin keçirilməsi çox mühüm bir tarixi hadisədir. Məhz Naxçıvana dünyanın müxtəlif ölkələrindən 117 diaspor gəncinin gəlməsi, burada 1 həftə müxtəlif müzakirələrdə iştirak etməsi, Naxçıvanın görməli yerləri, tarixi abidələri ilə tanış olması, Ümummilli Liderin doğulub, böyüdüyü bu məkana daha yaxından bələd olması çox böyük məna kəsb edir.



İlk panellərin birində Ulu Öndər Heydər Əliyevin keçdiyi ömür yolu ilə bağlı Azərbaycanın dövlət xadimləri, ziyalıları çıxış etdilər. Azərbaycanın keçmiş naziri Həsən Həsənovun diaspor gənclərinin bugünkü düşüncə ilə başa düşəcəyi şəkildə dahi şəxsiyyət Heydər Əliyevin sovet dövrü fəaliyyətinə nəzər salması tədbirdə iştirak edən bütün gəncləri həyəcanlandırmaqla yanaşı, onlar üçün böyük bir məktəb rolu oynadı. Eyni zamanda səfir Vilayət Quliyevin və akademik Rəfael Hüseynovun çıxışları da liderin fəaliyyətinin müxtəlif yönlərini göstərmək baxımından çox əhəmiyyətli oldu.

Azərbaycan mediasının rəhbərlərinin gənclərlə debata çıxması, indi Azərbaycan diasporunun qarşısında duran məsələlər barədə xaricdə necə təbliğat aparmalı olduqlarını, medianın qarşısında duran vəzifələr barədə edilən müzakirələr çox prioritet məsələlərdən biridir. Sosial medianın geniş yayıldığı indiki şəraitdə rəhbərlərin diaspor gəncləri ilə həmin bu debatı aparmaları mühüm; hansı ki “peşəkar media nə etməlidir, qarşıda hansı vəzifələr durur, xaricdə yaşayan həmvətənlərimiz bu məsələdə Azərbaycanın siyasətinə, haqlı mövqeyinə necə dəstək durmalıdır?” və sair bu kimi məsələlərin həlli yolunu tapmaq üçün çox əhəmiyyətli oldu. 117 gənc uzun illər boyunca burada söylənən fikirləri həyata keçirəcək.

✍ **Gülcamal TAHİROVA**

## Düşərgə iştirakçıları: *“Yay düşərgəsi diaspor işində ən vacib məqamlardan olan təcrübə, məlumat mübadiləsi imkanları yaratmaq baxımından mühümdür”*



Muxtar respublikanın tarix-mədəniyyət abidələri ilə tanışlıq çərçivəsində düşərgə iştirakçılarından bir neçəsi təəssüratlarını “Şərq qapısı” qəzetinin oxucuları ilə bölüşüblər:



***Yusif Məmmədov – Polşa Azərbaycanlıları Şurasının icraçı direktoru:*** – Əslən Füzuli rayonundanam, orada dünyaya göz açmışam, orta təhsilimi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olmuşam. İtaliyada magistr təhsili almışam. Daha sonra Polşada yaşamağa başlamışam, iş imkanları əldə etmişəm. Orada Polşa Azərbaycanlıları Şurası diaspor təşkilatı ilə tanış olmuşam. Fəaliyyətimə həmin təşkilatda başlamışam və bir ilə yaxındır ki, şuranın icraçı direktoruyam. Polşa Azərbaycanlıları Şurası hazırda aktiv, bütün Avropada tanınan diaspor təşkilatlarından biridir. Artıq şuranın 1000-dən çox üzvü vardır. Biz ən son Novruz bayramı ilə əlaqədar tədbir təşkil etdikdə oraya könüllü şəkildə 250-300 üzvümüz gəlmişdi. Xocalı soyqırımı ilə bağlı aksiyalara 300-500 nəfər sayla qatılmağa çalışırıq. Bu da, təbii ki, yer sayının məhdudluğu ilə əlaqədardır. Hazırda bizim bir layihəmiz vardır, hansı ki biz Polşada yaşayan azərbaycanlı gəncləri maarifləndirərək daha yaxşı yerlərə aparmaq istəyirik. Belə ki, biz artıq ötən ilin noyabr ayından indiyədək 170 azərbaycanlını müxtəlif banklarda işə düzəltmişik. Onlar tələbə idi, işlə bağlı məlumatları yox idi. Biz onları könüllü müəllimlərimizin köməkliyi ilə təmənnasız olaraq Varşavadakı Azərbaycan evində 3 ay boyunca hazırlaşdırdıq. Hazırda onlar dünyanın ən tanınmış banklarında aparıcı vəzifələrdə çalışırlar, yaxşı məvaciblər alırlar. Hələlik ən yaxşı nailiyyətlərimizdən biri budur. Bizim əsas məqsədimiz gəncləri maarifləndirmək, bizi yaxşı

*Ardı 4-cü səhifədə*



təmsil etmək üçün yüksək vəzifələrdə olmasına köməklik göstərməkdir. Bu il Diaspor Gənclərinin IV Yay Düşərgəsinin təşkil olunacağı ilə bağlı məlumat öyrəndim. Açığı, yerin Naxçıvan olması marağımı çox çəkdi, çünki ilk dəfə idi ki, buraya gələcəkdim və çox istəyirdim ki, ölkəmiz üçün önəmli olan bu diyarda olum. Bu düşərgəyə qatılmaq üçün 500 gənc müraciət etmişdi, çox şadam ki, onlar arasından mən də seçildim. Havanın isti olmasına baxmayaraq, tarixi yerləri gəzmək, xüsusilə də təamların dadına baxmaq çox yaxşı hisslər yaşadır. Burada qovurma yedim, çox bəyəndim. Düşərgədə iştirakımız gələcək diaspor fəaliyyətimizdə çox faydalı olacaq. Mən artıq bu sayədə Çində yaşayan azərbaycanlı tanıyıram, oradan nəsə məlumat lazım olsa, ala bilərəm, çünki dost olduq. Bunun üçün bu düşərgə olduqca uğurludur. Misal üçün, Yaponiyada yaşayan bir azərbaycanlının Polşada yaşayan dostu olacaq. Bir diaspor nümayəndəsi üçün bundan gözəl nə ola bilər ki?! Ümumiyyətlə, yay düşərgəsi diaspor işində ən vacib məqamlardan biri olan qarşılıqlı təcrübə, məlumat mübadiləsi imkanları yaratmaq baxımından mühümdür. Düşərgənin davamlı olmasını istəyirəm.

***Mona Savojifar – Finlandiyada yaşayan azərbaycanlı şagird:*** – Finlandiyada 12-ci sinifdə oxuyuram, yəni axırıncı məktəb ilimdir. Çoxlu imtahanlarım olduğu üçün əvvəlcə düşərgəyə qatılmaqla bağlı tərəddüd etdim, lakin bu fürsəti qaçıra bilməzdim. Özüm haqqında onu deyə bilərəm ki, anam gəncəlidir, atam isə əslən Naxçıvandandır. Qardaşımın təhsili ilə bağlı Finlandiyaya köçmüşdük, 13 ildir, orada yaşayırıq. Burada olduğum qısa zamanda özümü evimdəki kimi hiss etdim. Birinci dəfədir ki, ata yurdumda oluram, inanılmaz hisslər keçirirəm. Mənim üçün çox mühüm amildir ki, məmləkətimizi dərindən tanıyaq, tanıdaq. Yurdunu tanımaq özünü tanımaq deməkdir. Mən Ümummilli Lider Heydər Əliyevin bu barədə kəlamlarını, hikmətli sözlərini çox oxumuşam, təsirlənmişəm, dahi şəxsiyyətin sözündə çox böyük həqiqət vardır. Bəli, biz öz mədəniyyətimizi sevəndə, təbliğ edəndə ona hörmət göstərmiş oluruq. Düzünü deyim ki, Finlandiyada Azərbaycana qarşı fikirlər əksdir, mədəniyyətimizi, tariximizi tanımırlar. Məktəbdə bizdə mədəniyyət günü olur. Mən hər zaman çalışırdım ki, həmin gündə Azərbaycanın mənəvi irsini təbliğ edəm, "Sarı gəlin" rəqsini də orada ifa etmişəm, milli mətbəximizin nümunəsi sayılan paxlavanı tanıtmışam. Bir faktı da deyim. Ordumuzun parlaq Qələbəsi ilə bitən 44 günlük müharibədən sonra Finlandiyanın mərkəzi qəzeti bizim haqqımızda əks təbliğat apardı. Mən də buna dözə bilmirdim. Əsəbləşdim, zəng vurdum qəzet redaksiyasına. Dedim mənim 15 yaşım var, çünki bilirəm ki, Finlandiyada gənclərin fikirlərinə mühüm önəm verilir. Dedim ki, siz yazdığınız məlumatlar tamamilə yanlışdır, niyə bir dəfə Xocalı faciəsi haqqında bir məqalə vermirsiz, sualım qarşısında heç bir müsbət cavab, reaksiya ala bilmədim. Mən də jurnalist axtarışına düşdüm və bir mətbuat işçisi tapdım. "Zoom" proqramı vasitəsilə Xocalı soyqırımı haqqında həqiqətləri onunla bölüşdüm və bir məqalə ərsəyə gətirib faciənin ildönümündə həmin mərkəzi qəzetdə yayımladıq. Bundan sonra orada yaşayan ermənilər mənə təzyiq göstərməyə başladılar, yaşımın az olmasına baxmayaraq, onlardan qətiyyən qorxmadım. Əksinə, Vətənim naminə azacıq da olsa, nə isə edə bildiyim üçün çox qürurlandım.



***Nəsrin Kavakva – Azərbaycanın Bolqarıstandakı səfirliyinin əməkdaşı:*** – Bolqarıstandan gəlmişəm, 2019-cu ildən oradakı Azərbaycan səfirliyində çalışıram. Düşərgə keçiriləcəyi barədə bolqar diasporundan öyrəndim. Səfirlikdən də Naxçıvanda Diaspor Gənclərinin IV Yay Düşərgəsinin təşkil olunacağını bildirdilər. Hələ səfirlikdə çalışdığım vaxtdan Azərbaycanı görmək marağında olan biri kimi, böyük məmnuniyyətlə bu düşərgədə iştirak etmək istəyimi bildirdim. Çox sevinirəm ki, razılıq verildi. Bilirəm ki, Naxçıvan Azərbaycan üçün olduqca önəmli yerdir. Buna görə Naxçıvana gəlişimdən çox şad oldum. Havanın isti olmasına baxmayaraq, tarixi yerlər insanı özünə çəkir, yorulmursan. Düşərgənin ilk günü maraqlı açılış tədbiri keçirildi, rəngarəng konsert proqramı oldu, xalq, bəstəkar mahnılarını sevə-sevə dinlədik, məşhur yallı rəqsini oynadıq. Ümumiyyətlə, təşkilatçılıq çox yüksək səviyyədədir, təhlükəsizlik tədbirlərinə ciddi yanaşılıb. İnanmıram ki, hansısa turist burada gəzsə, ekskursiya etsə, nədənsə qorxa, çəkinə bilər.



*Qeyd edək ki, Diaspor Gənclərinin IV Yay Düşərgəsinin ilk gününün sonunda "Secret friend" oyununun təqdimatı olub, iştirakçılar Azərbaycanın dəyərli tarixi kino incilərindən sayılan "Babək" filminə baxıblar.*

**✍ Nail ƏSGƏROV**

## "Müstəqillik dövründə Azərbaycanın xarici siyasət prioritetləri" mövzusunda III panel müzakirələri keçirilib



*"Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsi çərçivəsində növbəti panel müzakirələri olub.*

Əvvəlcə qonaqlar "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə tanış olublar. Günün ikinci yarısında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyevin moderatorluğu ilə "Müstəqillik dövründə Azərbaycanın xarici siyasət prioritetləri" mövzusunda III panel müzakirələri keçirilib. Panelçilər Azərbaycan Respublikasının sabiq xarici işlər naziri, Azərbaycan Respublikasının Bosniya və Hersoqovinada fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevin, Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılovun, Xarici İşlər Nazirliyinin Linqvistik Təminat İdarəsinin rəisi Rizvan Nəbiyevin çıxışları olub. Çıxışlarda Ümummilli Lider Heydər Əliyev və mədəniyyət diplomatiyası, Avropa Şurası ilə əməkdaşlığın yaradılması, genişləndirilməsi və dərinləşdirilməsi istiqamətində Ulu Öndərin rolu, mühüm geosiyasi məkan kimi Azərbaycanın müstəqil xarici siyasətinin formalaşması, regional və qlobal proseslərdə fəal iştirakının təmin edilməsi, regionda sabitliyin və təhlükəsizliyin qarantına çevrilməsində görkəmli dövlət xadiminin xidmətləri geniş şəkildə gənclərin diqqətinə çatdırılıb. Panelistlərlə debat zamanı diaspor gənclərini maraqlandıran suallar cavablandırılıb.

Jurnalist-təlimçi Şəfəq Mehrəliyevanın moderatorluğu ilə "Xalq diplomatiyası" adlı maraqlı təlim keçirilib. Təlimdə gənclər aktivlik nümayiş etdirib. Daha sonra vaxtı daha da əyləncəli etmək üçün "Breyn rinq" intellektual oyunu təşkil edilib. Qonaqlar üçün ayrılan asudə vaxtda isə milli kino sənətimizin şah əsərlərindən olan "Nəsimi" filmi nümayiş olunub.

Düşərgə iştirakçılarından qəzetimiz üçün müsahibə aldıq.

***Əsma Beheri:*** – Misirliyəm, Əl-Əzhər Universitetindən yenicə məzun olmuşam. Misirdəki Misir-Azərbaycan Dostluq Cəmiyyətində Azərbaycan dilini öyrənmişəm. İlk müəllimim azərbaycanlı olub. Onlar bizə bir müəllim kimi yox, qardaş-bacı kimi münasibət bəsləyir, azərbaycanlıları çox sevdiyimiz üçün onların dilində daha yaxşı danışmağa can atırdıq. Müəllimlərimiz bizə güvənir, qarşılıqsız, sevə-sevə dili öyrədirdilər. Ona görə bizim ölkəmizdə Azərbaycan dilini bilən çoxdur.



Misirdəki Azərbaycan Diasporu ilə aktiv əlaqələrim vardır. Azərbaycan haqqında, xüsusilə soyqırımı, Qanlı Yanvar günləri ilə bağlı məlumatlar toplayıb, Azərbaycan dilindən ərəbcəyə tərcümə edib məqalələr hazırlayıram və yazdıqlarım, hətta ana dilinizdə söylədiyim şeirlər cəmiyyət, eləcə də diasporun internet hesablarında paylaşılır. Ərəblər bu vasitə ilə az da olsa, Azərbaycan haqqında məlumat ala bilirlər.

Naxçıvana, düşərgəyə gəlişim elan vasitəsilə oldu. Orada həm xaricdə yaşayan azərbaycanlılar, həm də Azərbaycan dilində danışa bilənlər iştirak edə bilər yazırdı. Mən də bu fürsəti əldən buraxmadım, biliklərimi artırmaq üçün müraciət etdim. Naxçıvan çox gözəldir. Həm gəzdiyimiz yerlər, həm də burada aparılan müzakirələrdə Azərbaycan tarixi haqqında çox şey öyrəndim. Mən fəxr edirəm ki, həm misirliyəm, həm Azərbaycan haqqında məlumatlıyam. Naxçıvanda xüsusilə diqqətimi çəkən Heydər Əliyev Muzeyi oldu. Azərbaycanlılar Ulu Öndər kimi bir dahi rəhbəri çox haqlı olaraq fəxr edirlər. O, dahi bir şəxsiyyətdir, Onun Azərbaycan üçün nələr etdiyini biləndə heyrətə gəlirsən. Onun haqqında burada gəzdiyimiz yerlərdə çox məlumatlar öyrəndik. Azərbaycanlılar çox mehribandırlar, onlar mənim misirli qonaq olduğumu biləndə daha yaxşı davrandılar. Bir sözlə, burada hər şey mükəmməldir. Mən çox şadam ki, belə bir düşərgədə iştirak edirəm.



***Ramal Verdiyev:*** – Düşərgəyə Slovakiya Respublikasının Bratislava şəhərindən qatılıram. Orada magistr təhsilimi başa vurduqdan sonra doktorantura təhsilimi davam etdirirəm. Həmçinin beynəlxalq şirkətlərdən birində çalışıram. Artıq 4-cü ildir ki, Slovakiyada yaşayıram. Slovakiyaya dövlət təqaüd proqramı xətti ilə getmişdim və məzun olduqdan sonra davam etdirirəm. Diaspor gənclərinin düşərgəsi haqqında məlumatı bundan öncəki Şuşada təşkil edilən düşərgədə Slovakiyadan iştirak edən nümayəndə vasitəsilə öyrəndim. Ondan əvvəlki düşərgələr haqqında da araşdırdım, gördüm ki, həqiqətən, diaspor gənclərinin ümumi kommunikasiyası üçün çox gözəl bir vasitədir. Bizim Slovakiyadakı diasporumuzun koordinatoru ilə əlaqə saxladıqdan sonra müraciət etmək qərarına gəldim. Şadam ki, müraciətim müsbət cavablandırıldı. Çünki Naxçıvan şəhərində heç vaxt olmamışdım. Təəssüratlarım həddindən artıq gözəldir. Naxçıvandakı qədim tarixi abidələrə – Xan Sarayı, Möminə xatın türbəsi, Heydər Əliyev Muzeyi, Əshabi-kəhf ziyarətgahına səfər etdik. Çox sevincliyəm ki, burada iştirak etdim. Həmçinin düşərgə müddətində bizim müəyyən panel müzakirələrimiz olur. Ölkənin dövlət strukturlarında, xaricdə fəaliyyət göstərən təcrübəli şəxslərin Ümummilli Lider Heydər Əliyevlə bağlı öz fikirlərini bölüşməsi bizim üçün çox xoşdur. Çünki biz onlardan öyrənirik. Ümid edirəm ki, digər müzakirələr də maraqlı olacaq, daha da təcrübə qazanacağıq və bunu öz fəaliyyətimizdə tətbiq edəcəyik. Çünki bizim burada iştirak etməyimizin əsas məqsədi öyrəndiklərimizi yaşadığımız ölkələrdə təbliğ etməkdir və diaspor fəaliyyətinin daha da gücləndirilməsidir. Çalışacağam ki, bu düşərgədən sonra mən də üzərimə düşən vəzifəni layiqincə yerinə yetirəm.



***Nərgiz Kazımova:*** – Üç il Fransanın paytaxtı Paris şəhərində yaşamışam, magistr təhsili almışam. Orada ölkəmizlə bağlı təşkil edilən tədbirlərdə aktiv iştirak edirəm. Həmçinin Parisdə diasporumuzun fəaliyyəti ilə tanış oldum. Hazırda Tuluz şəhərində Paul Sabatier Universitetində kimya üzrə doktorantura təhsili alıram. Düşərgəyə internet vasitəsilə seçildim. Düşərgə çox maraqlı keçir, çox interaktiv panellər keçirilir. Artıq üçüncü gündür, çox şey öyrənmişik. Gözəl insanları tanıdıq burada, bundan başqa, Naxçıvanda bir çox yerlərə gəzintimiz oldu. Naxçıvan təmiz, çox gözəl bir şəhərdir. Burada İspaniya, Avstriya, Rusiya və sair kimi fərqli ölkələrdən insanlarla tanış oldum, çoxlu dostluqlar qazandım.



**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Ordubadda türk zabitinin xatirəsinə bulaq-abidə ucaldılıb



1918-1920-ci illərdə Naxçıvan əhalisi bizə qarşı torpaq iddialarında olan erməni qəsbkarlarına müqavimət göstərib, Azərbaycanın tərkib hissəsi kimi varlığını qoruyub. Həmin illərdə Anadoludan gələn türkiyəli qardaşlarımız da bizə dəstək olub, torpağımızın bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalıblar. Xalqımız daim qardaş şəhidlərimizin xatirəsini uca tutub, onları yada salıb, türk şəhidlərin adları əbədiləşdirilib. Həmin şəhidlərdən biri olan Həsən Başir Türkoğlunun şəhadətindən 105 il ötür. Ordubad rayonunun Anaqut kəndində şəhidin xatirəsini əbədiləşdirmək məqsədilə bulaq-abidə inşa edilib.

Bulaq-abidənin açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli və Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya çıxış ediblər.

Bildirilib ki, 1918-1920-ci illərdə erməni daşnakları Azərbaycanın başqa bölgələrində olduğu kimi, Naxçıvanda da türk-müsəlman əhalisinə qarşı qanlı cinayətlər törədiblər. Belə dəhşətli günlərdə türk ordusu qardaş harayına yetib. Kazım Qarabəkir Paşanın başçılığı altındakı IV Qafqaz ordusunun 15-ci süvari alayının taqımı yerli özünümüdafiə üzvləri ilə birlikdə kəndlərimizdə soyqırımı faciələrinin qarşısının alınmasında ölüm-dirim savaşına girdi, bizimlə birlikdə şəhidlər verdi.

Qeyd edilib ki, xalqımız qardaş ölkənin qəhrəman övladlarının şücaətini unutmayıb, onların yazdığı qəhrəmanlıq dastanını dillərdən salmayıb, Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanında Türkiyə şəhidlərinin əziz xatirəsinə abidə ucaldılıb. Türk ordusunun belə qəhrəman zabitlərindən biri də Həsən Başir Türkoğludur. O bu döyüşdə xüsusilə fərqlənib, düşmən mövqelərinin darmadağın edilməsində xüsusi qəhrəmanlıq nümayiş etdirib. Həsən Başir 1918-ci ildə Ordubad rayonunun Dırnıs kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub və bu kənddə dəfn edilib. Həmin döyüşlərdə qardaş türk ordusunun səyi nəticəsində şəhidlərimizin və soyqırımının çoxsaylı qurbanlarının qisası alınıb, Ordubad və bütövlükdə, Naxçıvan düşmənlərdən təmizlənib.

Çıxışlarda 44 günlük Vətən müharibəsində qazandığımız parlaq Zəfərdən də söz açılıb, qardaş türk dövlətinin və xalqının mənəvi və siyasi dəstəyinin də qələbənin qazanılmasında mühüm rol oynadığı diqqətə çatdırılıb.

Tədbirdə Bakı Dövlət Universitetinin Dilçilik kafedrasının müdiri, professor Adil Babayev qəhrəman türk zabiti Həsən Başirin qəhrəmanlığı haqqında danışdı.

Kənd sakini, xeyriyyəçi Ramiz Hüseynov bildirib ki, Vətən daşına dönən oğullar heç vaxt unudulmur, əbədi yaşayırlar. Bu gün açılışı edilən bulaq-abidə də türk zabiti Həsən Başirin xatirəsini qəlblərdə əbədi yaşadacaq.

Digər çıxış edənlər şəhidlərin daim qürur mənbəyimiz olduqlarını bildirib, bu xeyirxah əməyi yüksək qiymətləndiriblər.

Tədbirin davamında məktəblilər şəhidlərin xatirəsinə həsr olunmuş şeirlər səsləndirib.

Sonda Həsən Başir Türkoğlunun və Dırnıs kənd şəhidlərinin məzarları ziyarət edilib, ruhlarına dualar oxunub.

**Xəbərlər şöbəsi**

# Naxçıvandakı qeyri-hökumət təşkilatları beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb.

Müraciətdə deyilir:

"Biz – Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları beynəlxalq ictimaiyyətə üz tutaraq bildiririk ki, Naxçıvan Muxtar Respublikası 30 ildən çoxdur ki, blokada şəraitində yaşayır. Naxçıvan əhalisi 15 ilə yaxın blokadaya görə qazsız qalıb, hətta elektrik enerjisi yox idi. Azərbaycanın əsas hissəsindən gələn enerji xətləri Ermənistan tərəfindən kəsilmişdi. Naxçıvanla Bakı arasında əlaqələr dəmir yolu üzərindən idi və bu da 1992-ci ildə Mehridən gələn son qatar güllələbaran edildikdən sonra kəsildi.

Beynəlxalq birlik Naxçıvandakı dinc sakinlərin problemlərinin, eyni zamanda blokadanın aradan qaldırılması üçün heç bir addım atmayıb və Ermənistana bu məsələdə heç bir təzyiq etməyib. Niyə bu illər ərzində bizim haqq səsimiz eşidilməyib?

Ermənistan hələ də Naxçıvan əhalisini, yaşayış məntəqələrini müntəzəm atəşə tutur. Əgər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Onun layiqli davamçısı Prezident cənab İlham Əliyev olmasa idi, Naxçıvan da Qarabağ kimi işğal olunacaqdı.

Ermənistan Sədərəklə bitişik məntəqədə – Arazdəyəndə Espo Konvensiyasının tələblərinə zidd olaraq metallurgiya zavodu inşa edir. Bu, blokadaya məhkum edilmiş Naxçıvan əhalisinə qarşı ekoloji terror siyasətidir. Sözügedən transsərhəd ərazidə Azərbaycan hökumətinin razılığı olmadan ağır sənaye zavodunun tikilməsi ətraf mühitin, havanın zəhərli tullantılarla çirklənməsinə, ekosistemin pozulmasına səbəb olacaq.

Ermənistan 2020-ci ildə 44 günlük müharibədən sonra imzalanmış 10 noyabr üçtərəfli bəyanatın müddəalarına əməl etmir, Zəngəzur dəhlizinin açılması istiqamətində heç bir tədbir görmür. Biz bu barədə dünya ictimaiyyətinin Ermənistana ardıcıl çağırışlarını, sanksiyalarını gözlədiyimiz bir vaxtda tam əksi baş verir.

Laçın yolunun guya bağlı olması barədə yalan məlumatlar, böhtanlar əsasında bir-birinin ardınca bəyanat verənlər, Azərbaycan dövlətini əsassız olaraq qınayanlar niyə bir dəfə də olsun Naxçıvanın on illərdir, blokadada qalması barədə məsələ qaldırmayıblar? Laçın yolu istiqamətinə gələrək binokla Azərbaycan tərəfə baxan xarici ölkə səfirləri niyə bir dəfə Naxçıvanın blokadasının aradan qaldırılması barədə söz deməyiblər? Bu qərəzli, riyakar yanaşma bizi hiddətləndirir. Əgər beynəlxalq aləm bölgədə həqiqi blokada görmək istəyirsə, Naxçıvan Muxtar Respublikasına baxa bilər.

Azərbaycan Respublikası öz sərhədlərinə nəzarət və Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Laçında sərhəd-buraxılış məntəqəsi yaradılıb. Bu sərhəd-buraxılış məntəqəsi Qarabağın minalanmasının, bölgəyə terrorçu diversiya qruplarının göndərilməsinin qarşısını alır. Dinc insanların ölümünə bais olanları necə müdafiə etmək olar? Necə ola bilər ki, Ermənistan başqa dövlətin suveren ərazisindən "dəhliz" istəyir, amma özü suverenliyini bəhanə gətirib bundan imtina edir. "Suverenlik" anlayışı məgər universal deyil? Yoxsa "suverenlik" anlayışı Ermənistan üçün başqa məna kəsb edir və ya onun üçün əlavə imtiyazdırmı? Əgər belə deyilsə, onda Zəngəzur dəhlizi niyə açılmır? Niyə bu barədə Ermənistana təzyiq yoxdur? Təəssüf ki, bu suallara cavab verilmir.

Biz 30 illik işğaldan sonra torpaqlarını öz gücü ilə azad edən, Ermənistanın tamamilə dağıtdığı, yer üzündən sildiyi ərazilərdə sıfırdan şəhərlər və kəndlər inşa edən, məcburi köçkünləri öz yurdlarına qaytaran Azərbaycana qarşı həyata keçirilən ikili standartlar siyasətini kəskin şəkildə pisləyirik.

30 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan əhalisinin ümidi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın digər bölgələri ilə quru əlaqəsinin yaradılması, regionda kommunikasiyaların açılmasıdır. Zəngəzur dəhlizi açılmalı, blokada aradan qaldırılmalıdır. Necə ola bilər ki, Azərbaycan hökuməti Qarabağda yaşayan erməni sakinlər üçün Laçın yolu ilə kommunikasiya imkanları yaradır, üstəlik Ağdam-Xankəndi yolunu da təklif edir, ancaq Ermənistan Naxçıvan əhalisinin, hətta humanitar əsasda belə Azərbaycanın digər hissəsinə keçməsinə şərait yaratmır. Biz tələb edirik ki, dünya birliyi Ermənistanı Zəngəzur dəhlizi layihəsini icra etməyə məcbur etsin!

Biz tez-tez humanitar əsasda Beynəlxalq Qırmızı Xaç Komitəsinin Laçın yolu ilə daşımalar həyata keçirdiyini müşahidə edirik. Beynəlxalq Qırmızı Xaç Komitəsinə də çağırış edirik ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyanı təmin etsin".

Müraciəti aşağıdakı şəxslər imzalayıblar:

1. Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublikası Təşkilatının sədri Məcid Seyidov
2. Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov
3. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev
4. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva
5. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov
6. Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Cəmiyyətinin sədri Yaşar Vəliyev
7. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev
8. Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov
9. "Naxçıvan Muxtar Respublikası Çernobıl Əlilləri" İctimai Birliyinin sədri Eyvaz Əsgərov
10. Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov
11. Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin sədri Heydər Əhmədov
12. "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri Valeh Mahmudov
13. "Gənc Vətənpərvərlər" İctimai Birliyinin sədri Sənan Bədəlov
14. "Estafet" Gənclərin İctimai Birliyinin sədri Xanım İbrahimova
15. "Naxçıvan Gənc Müəllimlər Assosiasiyası" İctimai Birliyinin sədri Gülxanım Orucova.

# Gənc əsgərlər Vətənə xidmət andı içib





Əlahiddə Ümumqoşun Orduda və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Andiçmə mərasimlərində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Əsgərlər hərbi and içərək Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Əlahiddə Ümumqoşun Ordudakı andiçmə mərasimində çıxış edən hərbi qulluqçular və əsgər valideynləri rəşadətli Ordumuzun ölkəmizin qüdrətinin nümunəsi, xalqımızın iftixar yeri, müstəqilliyimizin qarantı olduğunu bildirib və gənclərə xidmətlərində nizam-intizamlı olmağı, Vətənə olan əsgəri borcunu ləyaqətlə yerinə yetirməyi arzulayıblar.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Məhəmməd Həsənov bildirib ki, dövlətimiz tərəfindən əsgərlərimizə göstərilən diqqət və qayğı, yaradılan müasir məişət şərait onların daha yaxşı xidmət etmələrinə zəmin yaradır. İntizamlı Vətən müdafiəçisi olmaq üçün hər bir əsgər dövlətimizin qayğısından bəhrələnərək üzərinə düşən vəzifələri şüurla yerinə yetirməli, silah və texnikanın sirlərinə dərindən yiyələnməli, fiziki və mənəvi-psixoloji cəhətdən hazırlıqlı olmalı, komandirləri tərəfindən öyrədilənləri dərindən mənimsəməlidir.

General-mayor Məhəmməd Həsənov gənclərə xidmətlərində uğurlar arzulayıb və hərbi andı qəbuletmələri münasibətilə onları təbrik edib.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayındakı gənc əsgərlərin andiçmə mərasimindən sonra alayın hərbi hissə komandiri, mayor Şərif Əsədov Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, polkovnik Şahin Mirzəyevin təbriklərini şəxsi heyətə çatdırıb, onlara hərbi xidmətlərində uğurlar arzulayıb.

Nazirliyin əməkdaşı, polkovnik Əsgər İsmayılov bildirib ki, gənc əsgərlər nümunəvi xidməti, təlim-tərbiyəsi ilə hərbi hissənin adını yüksək tutacaq, əsgəri borcu şərəflə yerinə yetirəcək, baş verə biləcək fövqəladə hallar zamanı zərərçəkmiş insanların xilas edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

Gənc əsgərlər adından çıxış edən Pərvin İsmayılov Vətənimizə, xalqımıza layiqli əsgər kimi xidmət edəcəklərinə söz verib.

Valideynlər adından çıxış edən Süleyman Əhmədov hərbi hissədə yaradılan şəraitə görə minnətdarlıq edib, ölkəmizdəki xalq-ordu birliyindən söz açıb.

Andiçmə mərasimlərinin sonunda şəxsi heyətlərin tribuna önündən təntənəli keçidləri olub.

**Xəbərlər şöbəsi**

# Təhsil müəssisələri üçün yeni binaların tikintisi davam etdirilir





*Bu gün dövlətimiz tərəfindən təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin bazası möhkəmləndirilir, infrastrukturu yenilənir.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da digər sahələr kimi, təhsilin bütün pillələrinin inkişafı üçün də prioritet istiqamətlər müəyyənləşdirilib. Hazırda Dövlət Proqramının icrası istiqamətində mühüm tədbirlər həyata keçirilir. Qeyd edək ki, proqrama uyğun olaraq Naxçıvan şəhərində 1000 yerlik yeni məktəb binasının inşası da planlaşdırılır.

Məlumat üçün bildirək ki, muxtar respublikada hazırda təhsil quruculuğu istiqamətində işlər davam etdirilir. Ordubad rayonunun Azadkənd, Babək rayonunun Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbləri, Babək və Şahbuz rayonlarında məktəbdənkənar təhsil müəssisələri üçün yeni binaların tikintisi davam etdirilir. Yaxın günlərdə isə Babək rayonunun Hacıvar kəndində müasir tələblərə cavab verən yeni məktəb binasının tikintisinə başlanılacaq.

Hazırda inşaat işləri davam etdirilən müasirtipli 270 şagird yerlik 3 mərtəbədən ibarət Azadkənd tam orta məktəbində 2-si elektron lövhəli olmaqla, 15 sinif otağı,



hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, şahmat, kompüter sinfi, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları fəaliyyət göstərəcək. Yeni inşa olunan müasir məktəb binası maddi-texniki təchizatla, avadanlıqla pedaqoji kollektivin və şagird kontingentinin ixtiyarına veriləcək.

Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbdə də şagirdlərin rahat təhsil almaları üçün geniş imkanların yaradılması nəzərdə tutulub. Zirzəmi ilə birlikdə 4 mərtəbəli, müasirtipli 954 şagird yerlik yeni məktəb binasında 3-ü elektron lövhəli olmaqla, 50-dən artıq sinif otağı, 3 kompüter sinfi, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, STEAM kabinəsi, idman zalı yerləşəcək.

Babək və Şahbuz rayonlarında inşa olunan məktəbdənkənar təhsil müəssisələri üçün yeni binalar isə 3 mərtəbəlidir. Binalarda rayonların Uşaq-Gənclər Yaradıcılıq, Turist-Diyarşünaslıq və Texniki Yaradıcılıq mərkəzləri fəaliyyət göstərəcək. Burada "Bujiteriya", "Rəsm", "Dəri və şüşə üzərində işləmə", "Memarlıq-dizayn", "Kompüter mühəndisliyi", "Qum və ebru sənəti", "Robotexnika-STEAM", "Toxuculuq-bədii tikmə", "Keçəişləmə", "Xalçaçılıq", "Ağac üzərində oyma və yandırma", "Milli rəqs", "Gimnastika", "Dulusçuluq" kimi ənənəvi və innovativ dərnəklərin fəaliyyəti üçün müasir şərait ya-



radılacaq. Həmçinin binalarda səma cisimlərini müşahidə etmək üçün avadanlıqlar quraşdırılacaq. Bir sözlə, məktəbdənkənar təhsil müəssisələrində yaradılan müasir şərait uşaq, yeniyetmə və gənclərin maraq, meyil və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafına geniş imkanlar yaradacaqdır.

Qeyd edək ki, inşa olunan təhsil müəssisələrinin müasir tədris vəsaitləri və informasiya texnologiyaları ilə təminatına da xüsusi diqqət yetiriləcək. Məktəblərdə STEAM kabinələri yaradılacaq, müasir kompüterlər, elektron lövhələrlə təmin olunacaq. Təhsil ocaqlarında yeni texnologiyaların tətbiqi həm tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, həm də şagirdlərə informasiya-kommunikasiya texnologiyalarının mənimsədilməsinə öz töhfəsini verəcək. Şagirdlər STEAM kabinələrinin imkanlarından istifadə edərək gələcəyin xüsusi qabiliyyət və istedada malik, yaradıcı, yenilikçi, təşəbbüskar şəxsiyyəti kimi formalaşacaqlar.

Qeyd edək ki, muxtar respublikada təhsilə göstərilən qayğı artıq öz nəticəsini verir. Şagirdlər təhsilə göstərilən diqqət və qayğıdan, onlar üçün yaradılan müasir tədris şəraitindən yararlanaraq uğurlu nəticələr əldə edirlər. Elə bu qayğının nəticəsidir ki, ötən il ölkə üzrə ən yüksək qəbul nəticəsi Naxçıvan, Şahbuz və Ordubad rayonlarında olub. Ali təhsil müəssisələrinə qəbulolma göstəricilərində ilk onluqda muxtar respublikanın altı şəhər və rayon təhsil şöbəsi yer alıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Tarixi Azərbaycan torpaqlarımız*

# Tarixi türk torpağı Göyçə mahalı və bənzərsiz Göyçə gölü

*Rus yazıçısı Maksim Qorki yazırdı: “Bu göl sanki dağlar qoynuna düşmüş səmanın bir parçasıdır”. Bu gün də bənzərsizliyi, sehri, gözəlliyi ilə diqqəti cəlb edir Göyçə gölü. Tarixboyu ən gözəl, səfalı, bərəkətli torpaqlarımızı yağmalayan ermənilər təbiət gözəli Göyçəni də əlimizdən alıblar...*



Tarixən türk tayfalarının yurdu olub Göyçə mahalı. Türk mənşəli kimmer, iskit, sak tayfaları burada yerli türk əhalisinin mövqeyini daha da gücləndirib. “Kitabi-Dədə Qorqud” dastanında da Göyçə mahalı Oğuz türklərinin Vətəni kimi təsvir olunur, həmçinin burada Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı kimi toponim adları çəkilir. Tarixi materiallara istinadən deyə bilərik ki, zaman-zaman türk mənşəli Saci, Salari və Rəvvadilərin, Səlcuq imperiyasının, Atabəylər, Hülakü, Qaraqoyunlu, Ağqoyunlu dövlətlərinin tərkibində olan Göyçə mahalı Səfəvilər dövründə Çuxursədd bəylərbəyiliyinin ərazi inzibati vahidlərindən biri olub. Türk tayfalarının idarə etdiyi bəylərbəyilik Səfəvi-Osmanlı müharibəsi dövründə ciddi dağıntılara məruz qalıb, İstanbul sülh müqaviləsi ilə Osmanlı imperiyasının tabeliyinə keçib. XVIII əsrdə Çuxursədd bəylərbəyiliyi İrəvan, Naxçıvan və Maku əyalətlərini əhatə edib və Əfşarlar imperiyasının hüdudları daxilində Azərbaycan inzibati ərazisinin tərkibində olub. Nadir şahın ölümündən sonra Göyçə gölü ətrafında yaranan İrəvan xanlığının tərkibinə daxil olan Göyçə mahalı xanlığın şimal hissəsini əhatə etməklə həm ərazisinə, həm də əhalisinin sayına görə ən böyük mahal hesab edilib.

Türkmənçay (1828-ci il) müqaviləsi ilə İrəvan xanlığı Rusiyanın tərkibinə daxil edilmiş, Azərbaycanın qədim və tarixi torpaqlarında yeni inzibati bölgü – “Erməni vilayəti” yaradılmışdı. Həmin illərdə həyata keçirilən siyahıyaalmanın nəticəsinə görə, Göyçə mahalı ərazisində 59 dağıdılmamış kənd qalmışdı. Bığlı Hüseyn, Zeynalağalı, Rəhmankənd, Ağqala, Qızılcıq (Əbülkənd), Qışlaq, Kəvər, Qul-Əli, Kosa Məmməd, Paşakənd, Dəliqardaş, Başkənd, Təzəkənd, Dəlikdaş, Gölkəndi, Aşağı Adyaman, Yuxarı Adyaman, Əbdul Ağalı, Gözəldərə, Ağqıraq, Alçalı, Qızılbulaq, Basarkeçər, Kəsəmən, Ardanış, Ağbulaq, Toxluca və sair kəndlər mahala daxil idi.

XIX əsrin ortalarında əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edən Göyçə gölü hövzəsi torpaqlarında yeni inzibati ərazi vahidi Nor-Bayazit (Yeni Bəyazid) qəzası təşkil edildi. Bu addımı atmaqla çar hökuməti tarixi Azərbaycan ərazilərini tədricən planlı şəkildə erməniləşdirmək məqsədi güdürdü. Qəza inzibati cəhətdən 4 nahiyəyə – Dərəçiçək, Göyçə, Gözəldərə, Məzrəyə bölünürdü. Göyçə gölü və gölün sahilyanı əraziləri qəzanın şimal-şərq və cənub-qərb ərazilərini bir-birindən ayırırdı.

XX əsrin 20-ci illərində çar üsul-idarəsinin devrilməsi və müstəqil dövlətlərin yaranması bölgədə yeni reallıq yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti tarixi torpaqlarımızın yenidən dövlətimizin tərkibinə qatılması üçün çalışsa da, İrəvan, eləcə də Eçmiədzin qəzası Ermənistana verildikdən sonra ermənilər Qarabağın dağlıq hissəsinə də iddialarla çıxış etdilər. Nəticədə, Azərbaycanın tərkib hissəsi olmuş, sonralar İrəvan xanlığının ərazisi olan torpaqlar – Göyçə mahalının qərb hissəsi də əldən çıxdı, gölün şərq hissəsi “Göyçə dairəsi” statusu ilə Cümhuriyyətin tərkibində qaldı. Beləliklə, Göyçə gölü Azərbaycan və Ermənistan arasında sərhəd zonasına çevrildi. Tarixi Azərbaycan torpağı olan İrəvanın işğalından sonra yerli türk əhalisinə qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasəti, planlı şəkildə ermənilərin köçürülməsi nəticəsində bu ərazilər Azərbaycandan zorla qoparıldı... Göyçə mahalının Kəvər rayonuna daxil olan Ağzıbir, Ağqala, Başkənd, Qul Əli, Küzəcik, Kərimkənd, Kosa Məmməd, Nərədüz, Məmmədağalı, Qışlaq və digər kəndlərində mövcud olan tarixi abidələr alban memarlıq abidələri kompleksinə daxil olmaqla həm də ulu keçmişimizdən xəbər verir. Bu abidələrin, qəbirlərin bir çoxu vətəndaşlarımızın deportasiyasından sonra dağıdılıb, qarət edilib. Ümummilli Lider Heydər Əliyev ermənilərin tarixboyu soydaşlarımıza qarşı apardığı etnik təmizləmə, soyqırımı siyasətini belə ifadə etmişdi: ***“Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir”.***

Göyçə adının etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bir sıra tədqiqatçılara görə, bu ad Göyçə gölünün adından götürülüb, “Göyçay” sözünün tədricən dəyişilərək Göyçə formasına düşməsi əsasında əmələ gəlib. “Kitabi-Dədə-Qorqud” dastanında isə Göyçə gölünün adı Göyçə, Gökcə, Gökçe dəniz formalarında qeyd edilib. Tarixçi İsgəndər bəy Münşinin “Tarixi-aləmarayi-Abbasi” əsərində gölün adı Gökcə (Göycə) dənizi və ya Gökcə Təngiz kimi əks olunub. Göyçə gölünün adının Göyçək xanımın eşqinin həsrətindən yaranan bir rəvayətdən götürüldüyü də deyilənlər arasındadır. Erməni və rus mənbələrində isə bu göl Göyçay (Sinaya-Voda), Sevan, Qeqam, Qeqarkuni kimi qeyd edilir. Ermənilər bir çox tarixi torpaqlarımız, abidələrimiz kimi Göyçə gölünün də tarixi adını saxtalaşdıraraq Sevan qoyublar.

Dünyada ən gözəl göllərdən biri sayılan, Qafqazın incisi Göyçə gölünün sahəsi 1200 kvadratkilometrdir. Bu illər ərzində ermənilər Azərbaycanın digər gölləri, çayları kimi Göyçə gölünü də ekoloji terrorun qurbanına çeviriblər. Ekspertlər son illərdə göldə su səviyyəsinin, suyun şəffaflığının azaldığını, bataqlaşma prosesinin və zərərli mikroyosunların sürətlə yayılmağa başladığını qeyd edirlər. Gölün ekoloji vəziyyətinin diqqətdə saxlanılmaması, natəmizlik, suyun çirkləndirilməsi və Ermənistanın suvarmanı gölün suları hesabına həyata keçirməsi faciəli nəticələrə yol açıb. Qayğısızlıq nəticəsində göldə balıqların sayı xeyli azalıb, ya da ki ovlanaraq talan olunub. Göyçə gölü ağır vəziyyətdən xilas edilməzsə, tamamilə məhv ola, ekoloji faciə baş verə bilər. Tarixən Azərbaycanın sərvəti olan bu gölün belə qəddarcasına istismarı erməni vəhşiliyinin, ekoloji terrorunun növbəti təzahürüdür. Lakin digər torpaqlarımız, ərazilərimiz kimi Göyçə gölünü də erməni caynağından və terrorundan xilas edəcəyik. Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli iradəsi bunu deməyə imkan verir.

Ulu Öndər Heydər Əliyev Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində Göyçə mahalından didərgin düşmüş göyçəlilərin daim qayğısına qalmış, onların sosial-məişət şəraitini hər zaman diqqətdə saxlamışdı. Ümummilli Lider 2002-ci il sentyabrın 13-də Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində göyçəlilərlə görüşü zamanı onların bir gün öz doğma yurdlarına qayıdacaqlarını söyləmiş, əminliyini bildirmişdir ki, göyçəlilər öz doğma dağlarını, bulaqlarını, şəhərlərini görəcək, ata-babalarının qəbirlərini görəcəklər. Bu gün Prezident cənab İlham Əliyev Ulu Öndərimizin yolunu uğurla davam etdirir. Ölkə başçımız ötən il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə demişdi: ***“Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Bu gün yerləşdiyimiz yüksəkliklərdən, hətta Naxçıvan dağları da görsənir”.*** Bu fikirlər bütün göyçəlilərə yaşadıqları torpaqlara dönmək, Aşıq Ələsgərin, Aşıq Alının, Ağ Aşığın gözəl yurdu, aşıqlar diyarı Göyçəmizə, Göyçə gölümüzə qovuşmaq ümidləri verir. Naxçıvandan Göyçəyə gedən yollarla Vətəndən-vətənə qovuşacağımız gün elə də uzaqda deyil.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Şəhid ailələri ziyarət olunub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının birgə təşkilatçılığı ilə bir qrup könüllü gənc tərəfindən Babək rayonunun Yarımca, Məmmədrza Dizə, Kalbaoruc Dizə kəndlərində yaşayan şəhid ailələri ziyarət olunub.

Tədbir iştirakçıları şəhidlərimiz – İbrahim Vəlizadə, Ayaz İbrahimov və Şəhriyar Məmmədovun ailə üzvləri ilə görüş zamanı qəhrəmanlarımızın həyatı, döyüş yolu və şücaəti barədə məlumatlandırılıblar.

Gənclər və idman nazirinin müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov, Milli Məclisin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev görüşlər zamanı şücaətli, cəsur, eyni zamanda vətənpərvər övlad yetişdirdikləri üçün şəhid valideynlərinə dərin minnətdarlıqlarını bildiriblər.

İştirakçılara qəhrəman şəhidlərimizin xidməti fəaliyyəti, təltif edildikləri orden və medallar barədə məlumat verilib. Ailə üzvləri onların özünəməxsus xüsusiyyətləri ilə bağlı fikirlər səsləndirib, xatirələrini bölüşüblər. Gənclər şəhidlərimizə aid xatirə guşələri ilə də tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Növbəti tədris ili üçün istifadə olunacaq dərsliklər muxtar respublikaya gətirilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən 2023-2024-cü tədris ili üçün hazırlıqlara başlanılıb. Həyata keçirilən tədbirlərdən biri də şagirdlərin dərsliklərlə vaxtında təminatıdır. Bunun üçün nazirlik tərəfindən ümumtəhsil məktəblərindəki dərsliklərin təhlili aparılmış, yeni dərsliklərə tələbat müəyyənləşdirilmiş, cari ilin aprel ayında 193 min 447 dərsliyin sifarişi verilmişdir. Sifariş verilən dərsliklərdən 190 min 528-i artıq muxtar respublikaya gətirilib və növbəti günlərdə digər dərsliklərin də gətirilməsi təmin ediləcək.

Qeyd edək ki, bu tədris ilində ümumtəhsil məktəblərinin IV,VIII, XI sinifləri üçün nəzərdə tutulan bütün dərsliklər və VI sinif “Təbiət” dərsliyi yeni nəşrlərdir. Muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri bu yeni dərsliklərlə təmin olunacaq.

Hər biri mənəvi zənginlik, gələcəyin intellektli gənclərinin formalaşması üçün böyük bilik yükü daşıyan bu dərsliklər ilkin mərhələdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə məxsus anbarlara toplanılır. Dərsliklərin paylanması isə sentyabr ayının əvvəllərinədək həyata keçiriləcək. Bu, şagirdlərin tədris ili başlananadək bütün dərsliklərlə təmin edilməsinə və onların məzmunu ilə tanış olmasına şərait yaradacaq. Vaxtında və pulsuz paylanan dərs vəsaitləri bu sahəyə olan dövlət qayğısının nəticəsidir. Bu qayğı müqabilində məktəblilərin üzərinə düşən vəzifə biliklərə daha dərindən yiyələnmək və təqdim olunan vəsaitləri qoruyaraq onlardan düzgün istifadə etməkdir.

**✍ Ceyhun MƏMMƏDOV**

## Rezidenturaya qəbul imtahanının ikinci mərhələsi keçirilib



Avqustun 13-də Dövlət İmtahan Mərkəzi ali tibb təhsili əsasında həkim mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının ikinci mərhələsini keçirib. 934 namizədin iştirak etdiyi imtahan saat $10^{00}$-da başlanıb. İmtahanın idarə olunmasına 5 ümumi imtahan rəhbəri, 13 imtahan rəhbəri, 88 zal nəzarətçisi, 14 buraxılış rejimi əməkdaşı ayrılıb.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbdə 3 zalda keçirilib. 36 namizədin iştirak etdiyi imtahana 1 imtahan rəhbəri və 4 nəzarətçi cəlb edilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası üzrə 14 avqust 2023-cü il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 689 | 689 | 1478,2 | 21,5 |
| 2. | Şərur rayonu | 4189 | 4184,4 | 16149,6 | 38,6 |
| 3. | Babək rayonu | 6886 | 5897 | 11794 | 20 |
| 4. | Ordubad rayonu | 856 | 856 | 1185 | 13,8 |
| 5. | Culfa rayonu | 2181 | 1821,7 | 2420,6 | 13,3 |
| 6. | Kəngərli rayonu | 3780 | 3763 | 8743 | 23,2 |
| 7. | Şahbuz rayonu | 756 | 657,6 | 632,4 | 9,6 |
| 8. | Sədərək rayonu | 1910 | 1880,6 | 6792 | 36,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21247** | **19749,3** | **49194,8** | **24,9** |

### *İtmişdir*

Kapitan Seyidov Mirhani Mirhəşim oğlunun adına olan MN-0037700 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Mahmudkəndində yaşamış Əliyev Yusif Qasım oğlunun adına verilmiş JN-569$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 480